Kaspi.-2017.-29 aprel.-1 may.-S.24.

# MÜDRİKLİK ÇAĞININ TƏRAVƏTLİ RƏNGLƏRİ

*Xalq rəssamı Altay Hacıyevin yaradıcılığı haqqında düşüncələr...*



Ziyadxan Əliyev

Çoxəsrlik tarixə və zəngin bədii ənənələrə malik olan Azərbaycan təsviri sənətində elə sənətkarlar var ki, onların yaradıcılığı ilə ətraflı tanışlığımıza baxmayaraq həmişə açılmamış kitaba bənzəyirlər. Başqa sözlə desək, onların yaratdıqları hər yeni əsər, əslində, nəyinsə sonu-yekunu olmur, əksinə, harasa-nəyəsə keçid mahiyyəti daşıyır. Beləcə, yaradıcılıq potensialının nəhayətsizliyi ilə tamaşaçısını bitib-tükənməyən intizara məhkum edirlər.



Şeyx Şamil



Bahar

Əvvəlcə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq məktəbini (1951), sonra isə Ukraynada Kiyev Dövlət Rəssamlıq İnstitutunu (1959) bitirən Xalq rəssamı Altay Hacıyev (1931) məhz belə yaradıcılardandır. Belə ki, bilavasitə qrafika sahəsində mükəmməl təhsil alan sənətkar müstəqil yaradıcılığı dövründə zaman-zaman sənətsevərləri dəzgah və kitab qrafikası sahəsində ərsəyə gətirdiyi gözəl nümunələrlə yanaşı, həm də rəngkarlıq və monumental sənət sahəsində yaratdığı özünəməxsus əsərlərlə təəccübləndirə bilmişdir.

XX əsrdə yeni bədii keyfiyyətlərlə zənginləşən Azərbaycan təsviri sənətinin yaradıcılarından sayılan Əmir Hacıyevin ailəsində dünyaya göz açan Altayın uşaqlığından milli köklər üzərində formalaşan dünyaya baxışı, onun sonrakı illərdə baş tutacaq davamlı yaradıcılığının ənənə və müasirlik ruhunda inkişafına zəmin yaratmışdır. Yaratdıqları xalqının xarakterinə və zamanın ruhuna uyğun olduğundan zamansızlığa qovuşmuş kimi qəbul olunurlar və bu yəqin ki, onun bir sənətkar kimi əldə edə biləcəyi ən böyük mənəvi-yaradıcı qazancdır.

Onun realist-gerçəkçi sənət ənənələrindən şərti-rəmzi bədii şərhə qədər dəyişən dəst-xətti bir qayda olaraq tamaşaçısı ilə dialoq yaratmaq, onu düşüncələrə qərq etmək gücündə olduğundan sənətsevərlərin müxtəlif nəsilləri üçün bir qayda olaraq həmişə gözlənilməz və maraqlı olmuşdur. Odur ki, onun bu ay Azərbaycan Milli İncəsənət Muzeyində təşkil edilən və anadan olmasının 85 illiyinə həsr olunmuş növbəti fərdi yaradıcılıq sərgisində həmişəki kimi qələbəlik duyulurdu. Ekspozisiyada tamaşaçılara onun müxtəlif illərdə yaratdığı əsərlər təqdim olunmuşdu. Mövzu və janr rəngarəngliyi qarşılığında ekspozisiyanı təşkil edən bir-neçə salonun hər biri kifayət qədər baxımlı idi...

Axtarışlarla dolu ilk illəri nəzərə almasaq, onun yaradıcılıq bioqrafiyasını mərhələlərə bölməyə heç bir ehtiyac duyulmur. Bu heç də o demək deyildir ki, rəssam sənətdə ancaq ilk tapıntılarını təkrar etməklə məşğul olmuşdur. Onun əsərləri süjetinə, kompozisiya həllinə, plastik yozumuna və emosional təsir gücünə görə duyulası dərəcədə rəngarəngdir. Dəyişməz qalan onun obrazlı dünyaduyumu, həyat hadisələrinə özünəməxsus münasibəti, bir də əsərlərinin poetik-romantik ruhlu bədii şərhidir. Bütün bunların özü də hardasa onun yaradıcılığında əsrimizin müasir sənət axıntılarından şirələnən forma-biçim plastikası ilə milli mədəniyyət örnəklərindən süzülən və ovqat ifadəçisi olan boyaların qoşalaşması, ideya-məzmun daşıyıcısına çevrilməsidir...



Xurşudbanu Natəvan



Qasım bəy Zakir

Altay Hacıyevin yaradıcılığını xronoloji ardıcıllıqla izləməli və dəyərləndirməli olsaq, onda ilk növbədə onun qrafik irsindən söz açmalıyıq. Altmışıncı illərdə bu sahədə kifayət qədər güclü yaradıcı rəqabətin mövcudluğu danılmaz olmuşdur. Doğrudan da dəzgah və kitab qrafikası sahəsində M.Rəhmanzadə, Ə.Rzaquliyev, R.Babayev, D.Kazımov, N.Babayev, M.Vlasov və C.Müfidzadə kimi sənətkarların fəaliyyət göstərməsi hər bir yaradıcıdan ən azı bədii-estetik özünəməxsusluq nümayişi tələb edirdi. Güclü rəqabətdən çəkinməyən gənc rəssamın yaratdığı "Xəzər" və "Milli məişət əşyaları" adlı linoqravür silsilələri, "Koroğlu" dastanına və M.Y.Lermontovun "Aşıq Qərib" əsərinə çəkdiyi illüstrasiyalar elə zamanında sənətsevərlərlə yanaşı, çoxsaylı həmkarlarını da ovsunlamışdı. Çünki görünənlər təsviri sənət məkanında artıq adiləşməyə başlayan mövzu və motivlərə çox yeni və orijinal baxışın ifadəsi idi. Onun Xəzər neftçilərinin əməyini vəsf edən "Sahildən uzaqlarda", "Xəzərin fatehi", "Fırtınaya qarşı", "Dənizin qüruru" və s. qrafik lövhələrində linoqravür texnikasının bədii-texniki imkanlarından ustalıqla istifadə edən rəssam, məkan sərtliyini və insan fədakarlığını bir araya gətirməklə, romantik ruhlu əsərlər yaratmağa nail olmuşdur.

Onun "Milli məişət əşyaları" silsiləsində də ağ-qara cizgilərin təzad və ekspressiya yaratmaq gücünü maddi-mədəniyyət nümunələrinin forma-biçimində və naxış örtüyündə hifz olunan estetik qaynaqların üzə çıxarılmasına yönəldən qrafika ustası, hər bir lövhəni qürurverici mənəvi qaynağa çevirə bilmişdir.

Rəssamın müxtəlif məzmunlu kitablara verdiyi bədii tərtibatlarda və çəkdiyi illüstrasiyalarda isə müəllifin klassik miniatür ənənələrindən yaradıcılıqla faydalanmasına şahidlik etmək mümkündür. Həm "Koroğlu" dastanına, həm də "Aşıq Qərib" kitabına çəkilən rəsmlərdə müəllifin yığcam rəng həlli ilə müxtəlif tutumlu ruha və yaşantılara duyğulandırıcı bədii görkəm verdiyini görmək mümkündür.

Altay Hacıyevin son bir qərinədə davamlı olaraq müraciət etdiyi rəngkarlıq sahəsində ərsəyə gətirdiyi əsərlər də özünəməxsus estetikaya malikdirlər. Daha çox Azərbaycan tarixinin uzaq-yaxın səhifələrinə, Qafqaz xalqlarının azadlıq uğrunda apardıqları mübarizəyə, adları işıqlı əməllərinə görə xalqımızın qan yaddaşına hopan qəhrəmanların, şairlərin, dövlət xadimlərinin obrazlarına müraciət edən fırça ustası bununla da nəsillər arasında mənəvi əlaqənin möhkəmləndirilməsinə duyulası bədii töhfələr vermişdir. Dəst-xəttində qrafik başlanğıcla yağlı boya texnikasının texniki tutumunu qoşalaşdıran rəssam, bunun sayəsində tarixi motivlərə duyulası ekspressivlik bəxş edə bilmişdir. Bu mənada onun Xurşidbanu Natəvana həsr etdiyi silsilə xüsusilə diqqət çəkir. Xeyirxah əməllər sahibi olan Xan qızının həyat yolunu, mənəvi dünyasını müxtəlif tarixi-mədəni hadisələrlə vəhdətdə əks etdirən bu lövhələrin bədii dəyəri ilə yanaşı, tarixi-etnoqrafik mahiyyət daşıdığını qeyd etmək lazımdır. "Quşlarla söhbət", "Xarı bülbül", "Məclisi-üns", "Natəvan və Düma", "Şuşaya su kəmərənin çəkilməsi" və s. tabloları bu qəbildəndir.



Altay Hacıyev

Onun bir çox məşhur qadın tarixi şəxsiyyətlərə həsr olunmuş "Xalqımızın ulduzları" adlı silsilə-portretlərində də xalqımızın etik-mənəvi dəyər daşıyıcılarının yaddaqalan obrazları yaradılmışdır. Nizaminin müasiri Məhsəti Gəncəvi, naxçıvanlı Ehsan xanın qızı Qönçəbəyim, Qaçaq Nəbinin silahdaşı Həcər, qubalı Fətəli xanın xanımı Tutu Bikə, Aşıq Pəri, Xan qızı Xurşidbanu Natəvan və Azərbaycan Respublikasının birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın obrazları bədii kamilliyi ilə yanaşı, keçmiş tarixi durumun inandırıcı ifadəsi ilə yadda qalır.

Altay Hacıyevin dahi Füzuliyə həsr etdiyi əsəri də hiss-duyğular çələngindən hörülmüş bir sənət nümunəsi hesab etmək olar. Rəssamın Füzuli dünyasına olan bu məhəbbəti ictimaiyyətin də diqqətin yayınmamışdır. O, bu mövzuda çəkdiyi əsərlərə görə 1995-ci ildə "Bakılı" Beynəlxalq cəmiyyətinin təsis etdiyi "Humay" mükafatına layiq görülmüşdür.

Onun yaratdığı "Dədə Qorqud" portreti, eləcə də "Qarabağ atları", "Toy", "Dilək ağacı", "Köhnə neft mədənlərində", "Şeyx Şamil" süjetli tablosu da özündə tarixi həqiqətlərin yaddaqalan biçimdə təqdimatına görə diqqətçəkəndirlər.

Rəssamın monumental sənət sahəsindəki yaradıcı potensialını əks etdirən əsərlərdə qrafika və rəngkarlığın qoşalaşmasının yaratdığı estetik tutum çox cəlbedici və yaddaqalandır. Suraxanıdakı "Atəşgah", Sabunçudakı "Rövşən" və Lökbatandakı "Lökbatan" restoranlarının, Zuğulbadakı Kardioloji sanatoriyanın, Penza şəhərindəki "Azərbaycan" mağazasının, Mərdəkanda sanatoriyanın, "Neftçi" idman bazasının, "Lukoyl" şirkətinin Bakı ofisinin tərtibatını təşkil edən mozaika və divar rəsmlərdə onun özünəməxsus monumental duyumunu görmək mümkündür. Miniatür üslubunun estetikasını təfsir yolu ilə əsərlərinin bədii həllində tətbiq edən qocaman rəssam, bununla da müxtəlif mövzulu lövhələrinin bütün mənalarda təravətini saxlamasına nail olmuşdur.

Onun yaradıcılığının "estetik xəritəsi"ndəki duyulası təravət və coşqunluq isə ömrünün müdriklik çağını yaşayan rəssamın arxaya inamla boylanmağa , sənətdə saldığı özünəməxsus izə qürurla baxmağa haqqı çatdığını söyləməyə əsas verir...